

Milli azadlıqdan şirin nemət yoxdur!




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
02 iyun 2026-cı il, çərşənbə axşamı
№ 093 (7160)
Qiymətı 60 qəpik

# Zəngəzur dəhlizi mütləq inşa ediləcək







# İlham Əliyev: Qlobal enerji təhlükəsizliyinə töhfəmiz artacaq

Bax səh. 2




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**
**Paylaşımda deyilir: "Möhtərəm Prezident Donald Tramp, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".**

# Əsl müstəqillik o vaxt olur ki...

Bax səh. 3

## Azərbaycan-ABŞ əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Kaleb Orra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak etdiyinə görə təşəkkürünü bildirdi.

ABŞ Prezidenti Donald Trampın bu tədbirə məktub ünvanlamasını məmnunluqla vurğulayan Prezident İlham Əliyev bu yanaşmanın və tərəfdaşlığın çox yüksək qiymətləndirildiyini bildirdi, buna görə ABŞ dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının, həmçinin bu Xartiya əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxundu, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğuladı. Bu xüsusda Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığı bildirildi.

Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu.

Kaleb Orr ABŞ Prezidenti Donald Trampın və Dövlət katibi Marko Rubionun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da...

Bax səh. 3



Bax səh. 4-5

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub

## Qlobal neft ehtiyatları tükənməkdədir

Beynəlxalq maliyyə qurumları qlobal neft bazarındakı vəziyyətlə bağlı birgə bəyanat yayıb. Beynəlxalq Enerji Agentliyi, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı Qrupu və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) rəhbərləri arasında mayın 28-də keçirilən görüşün yekunlarında dair açıqlanan bəyanatda vurğulanır ki, Hörmüz boğazı vasitəsilə tədarükün böyük ölçüdə itirilməsinə cavab olaraq qlobal neft ehtiyatları tükənməkdədir. Qlobal neft ehtiyatları tamamilə...

Bax səh. 6

## Qeyri-neft sənayesinin inkişafına töhfə

2026-cı ilin birinci rübündə İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında istehsalın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz artaraq 883 milyon manata çatıb. Bu dövrdə istehsal olunan məhsulların 259 milyon manatlıq hissəsi ixrac edilib, sənaye zonalarına isə 158,7 milyon manat investisiya yatırılıb. Bu dövrdə Mingəçevir Sənaye Parkında istehsalda rekord artım qeydə alınıb, istehsal 77 faiz, ixrac isə 78 faizdən çox yüksəlib. Adıçəkilən Sənaye Parkında görülən işlərə ümumilikdə 159 milyon manat investisiya yatırılıb, 550 nəfər daimi işlə təmin edilib.

Cari ilin ötən dövründə Sumqayıt Sənaye Parkının istehsal potensialı böyüyüb, 100 milyon manatdan çox əlavə dəyər yaradılıb. Həmçinin, müəssisədə yeni rezidentlər fəaliyyətə başlayıb, "MET-AK" MMC-yə Agentliyin idarəçiliyində olan Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. Sumqayıt Sənaye Parkında bu günədək ümumi investisiya həcmi 6,7 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezident statusu verilib. Rezidentlər tərəfindən 5,6 milyard manatdan çox investisiya yatırılıb.

Sənaye Parkları ölkəmizin iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasında mühüm əhəmiyyət daşıyır. Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Ağdam, "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının imzaladığı müvafiq fərmanlara əsasən, hazırda Naxçıvan və Qərbi Sənaye Parkları yaradılmaqdadır. Həmin sənaye parkları ölkəmizin iqtisadi imkanlarının...

Bax səh. 6

## Qərb mediası Okamponu ifşa edir



Bax səh. 7



## Şərtlər sərtləşir

Bax səh. 7

# "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən bu mötəbər tədbirdə səmimi-qəlbdən salamlayıram.

Artıq uzun illərdir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji gündəliyinin formalaşdırıldığı, yeni yanaşma və əməkdaşlıq formatlarının təşəkkül tapdığı nüfuzlu platformaya çevrilib. Bu tədbirin əhəmiyyəti hər il daha da artır. Çünki dünya ənənəvi enerji modelindən dayanıqlı, aşağı karbonlu inkişaf strategiyasına və texnoloji yeniliklərə əsaslanan yeni enerji sisteminə keçid mərhələsini yaşayır. Belə bir şəraitdə Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir.

Ölkəmizin enerji tarixi zəngin ənənələrə və mühüm tarixi nailiyyətlərə əsaslanır. Hələ XIX əsrdə Azərbaycanda müasir neft sənayesinin formalaşması ölkəmizi qlobal enerji tarixinin aparıcı mərkəzlərindən birinə çevirmişdir. XX əsr Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq enerji tərəfdaşlıqlarının formalaşdığı dövr olmuşdur. XXI əsrdə isə ölkəmiz artıq "yaşıl enerji"yə keçid və dayanıqlı enerji modelinin qurulması istiqamətində yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycanın həyata keçirdiyi enerji siyasəti bu gün də mühüm nəticələr verməkdədir. Cari il enerji sahəsində bir sıra əlamətdar hadisələrlə yadda qalır. Xüsusilə, "Şahdəniz" qaz yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasının 30 illiyi və bu yataqdan kommersiya qaz hasilatına başlanmasının 20 illiyi Azərbaycanın qlobal enerji bazarında güclü mövqeyini və ölkəmizin enerji strategiyasının uğurla həyata keçirildiyini bir daha təsdiqləyir.

Hazırda dünyada enerji sektoru dayanıqlı inkişafın əsas sütunlarından biridir. Müasir geosiyasi proseslər göstərir ki, enerji təhlükəsizliyinin etibarlı təminatı enerji mənbələrinin şaxələndirilməsi və innovativ texnologiyaların tətbiqi ilə birbaşa bağlıdır. Bu baxımdan, bərpa olunan enerji və aşağı karbon texnologiyalarına investisiyalar sürətlə artır. Enerji keçidi artıq yalnız ekoloji məsələ deyil, həm də iqtisadi təhlükəsizlik və rəqabətqabiliyyətlilik amilinə çevrilmişdir.

Ölkəmiz də "yaşıl enerji" istiqamətində ardıcıl siyasət həyata keçirir və strateji mövqeyini daha da möhkəmləndirir. Avrasiyanın enerji və nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkəmiz regional enerji əməkdaşlığının inkişafına etibarlı tərəfdaş kimi mühüm töhfə verir. Bol enerji resursları, formalaşdırılmış infrastruktur və beynəlxalq səviyyədə qazanılmış yüksək etimad əsas üstünlüklərimizdir.

Azərbaycanın zəngin bərpa olunan enerji potensialı "yaşıl enerji" istiqamətində uzunmüddətli strateji hədəflərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Beynəlxalq enerji şirkətləri ilə irihəcmli "yaşıl enerji" layihələrinin həyata keçirilməsi və təbii qaz ixracının geniş coğrafiyanı əhatə etməsi ölkəmizin qlobal enerji sistemində etibarlı və strateji tərəfdaş kimi rolunu daha da gücləndirir. Dünya İqtisadi Forumunun enerji keçidi ilə bağlı hesabatında Azərbaycanın qabaqcıl mövqelərdə qərarlaşması da bunun beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir.

Bərpa olunan enerji sahəsində mövcud potensialın reallaşdırılması və "yaşıl enerji" imkanlarının genişləndirilməsi qarşıdakı dövrün əsas strateji hədəfləridir. Bu yanaşma enerji sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcını ifadə edir. Həmin mərhələdə əsas prioritetlər enerji resurslarının səmərəli idarə olunması ilə yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçidin sürətləndirilməsi və müasir texnologiyaların tətbiqidir.

Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri çərçivəsində "yaşıl enerji zonası" modelinin uğurla tətbiqi ölkəmizin gələcək enerji strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu yanaşmanın uğurla həyata keçirilməsi onun daha da genişləndirilməsinə və Naxçıvanın da "yaşıl enerji zonası" elan edilməsinə zəmin yaratmışdır.

Əminəm ki, "Bakı Enerji Həftəsi" bundan sonra da qlobal enerji dialoqunun genişlənməsinə, yeni təşəbbüslərin formalaşmasına və dayanıqlı enerji gələcəyinin qurulmasına mühüm töhfə verəcəkdir.

Sonda tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürümü bildirir, hər birinizə uğurlu əməkdaşlıq, məhsuldar müzakirələr və yeni nailiyyətlər arzulayıram!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
**Bakı şəhəri, 1 iyun 2026-cı il**

# Zəngəzur dəhlizi mütləq inşa ediləcək









İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

## İlham Əliyev: Qlobal enerji təhlükəsizliyinə töhfəmiz artacaq

### Prezident İlham Əliyevin çıxışı

-Sabahınız xeyir, xanımlar və cənablar.

Mən "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarını salamlayıram, bu cür böyük tədbirə uğurlar arzu edirəm.

Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm.

Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!

Bir sözlə, hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq. Ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, yaşıl gündəlik məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız.

Hörmətli iştirakçı və təşkilatçı tərəfindən qeyd edildi ki, Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adambaşına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu.

Əgər bu gün biz Azərbaycana nəzər salsaq həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır.

Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər.

Enerji təhlükəsizliyi. Biz hamımız ondan danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda. Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq. Cənubi Qafqaz qaz kəməri ilə günümüzün ən iddialı enerji infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizini təşkil edən TANAP və TAP, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri 3500 kilometr uzunluğunda birləşmiş boru xətti sistemindən ibarətdir. Layihənin bir hissəsi yüksək dağlıq ərazidən keçir, bir hissəsi isə dənizin dibi ilə gedir. Bu gün bu layihə sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Biz bu layihəyə başladıq və bizimlə birlikdə olan tərəfdaş ölkələrə və şirkətlərə minnətdarıq.

Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada - "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq. Yeri gəlmişkən, bu gün bizdə bir neçə sənədin imzalanma mərasimi olacaq. Mən xüsusilə "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsini vurğulamaq istəyirəm, biz bunu belə adlandırırıq. Bu layihə üzrə Abşeron yatağı və bir çox digər yataqlarla yanaşı, əlavə qaz hasil ediləcəkdir. Beləliklə, bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. Düzgün enerji siyasəti bizə Azərbaycandan xaricə sərmayə yatırmağa imkan verdi. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq. Bu gün Dövlət Neft Şirkəti - SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək.

Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik.

Biz emal sənayesində yüksək dərəcədə şaxələndirilmiş imkanlar yaratmışıq. Bu gün SOCAR-ın neft emalı gücü 30 milyon tondan artıqdır. Bu yaxınlarda "Italiana Petroli"nin satın alınması nəticəsində Aralıq dənizi hövzəsindəki emal gücümüz 13 milyon tondan 23 milyon tona yüksəlmişdir. Beləliklə, biz yalnız neft və qaz deyil, həm də neft məhsullarını təchiz edirik. Bununla yanaşı, elektrik enerjisi, neft-kimya məhsulları və bərpaolunan enerji sahəsində də ixrac imkanlarımız mövcuddur. Bu istiqamət fəaliyyətimizin əsas prioritetlərindən biridir. Artıq qeyd etdiyim kimi, ölkələr sahib olduqları neft ehtiyatlarına əsasən deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə və bərpaolunan enerjiyə necə sərmayə yatırdıqlarına görə qiymətləndirilməlidirlər.

Mövcud qaz ehtiyatlarımız ən azı növbəti yüz il ərzində həm ölkəmizin, həm də tərəfdaşlarımızın tələbatını ödəməyə kifayət edəcəkdir. Əslində, bu ehtiyatlar nəzərə alındıqda, elektrik enerjisinin istehsalı üçün əlavə mənbələrə ehtiyacımız olmazdı. Lakin məsuliyyətimiz bizdən bərpaolunan enerji mənbələrinə sərmayə yatırmağı tələb edir. Biz bunu edirik. Tərəfdaşlarımızla birlikdə investorlar üçün olduqca əlverişli şərait yaratmışıq. Bu şərait mahiyyət etibarilə ötən əsrin 90-cı illərinin əvvəllərində neft şirkətləri üçün yaradılmış imkanlara bənzəyir. Bu gün eyni əməkdaşlıq ruhu və investisiyaya açıq yanaşma bərpaolunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərə də tətbiq olunur.

Artıq bir sıra layihələrimiz istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Əgər fəal şəkildə inkişaf etdirdiyimiz hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilmişdir. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Həmin potensial neft və qaz ixracımızı tamamlayan bir mənbəyə çevriləcəkdir.

Bu gün biz tərəfdaşlarımızla enerji kabeli layihələri üzrə sıx əməkdaşlıq edirik. Texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsi Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Bu yaxınlarda həmin ölkələrin hökumət nümayəndələrinin çox səmərəli görüşü keçirilmişdir.

Biz, həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq yaşıl enerji kabeli layihəsi üzərində işləyirik.

Beləliklə, söhbət geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanından gedir və bu bağlılıq yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Halbuki, nəqliyyat sahəsində əldə etdiyimiz nailiyyətlərlə də haqlı olaraq fəxr edə bilərik. Dəmir yolu və avtomobil yolu infrastrukturuna qoyduğumuz sərmayələr sayəsində yeni nəqliyyat dəhlizləri açmışıq və qitələri bir-biri ilə əlaqələndirmişik.

Şərq-Qərb dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir.

Xüsusilə vurğulamaq istədiyim digər bir məsələ isə ondan ibarətdir ki, bütün bu nailiyyətlər yüksəksəviyyəli diplomatik fəaliyyət nəticəsində mümkün olmuşdur. Çünki Azərbaycan dənizə birbaşa çıxışı olmayan ölkədir. Bizim dünya okeanlarına çıxışımız yoxdur. Bu səbəbdən enerji resurslarımızı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçmək zərurəti yaranır. Buna nail olmaq üçün isə yalnız qonşularınızla deyil, qonşularınızın qonşuları ilə də yaxşı münasibətlər qurmalısınız. Biz buna nail olmuşuq.

Qeyd etdiyim kimi, bu gün Cənub Qaz Dəhlizi və onun genişləndirilmiş marşrutları vasitəsilə Azərbaycanın qazı 16 ölkəyə çatdırılır. Bu ölkələrin hər biri ilə danışıqlar aparmışıq, sazişlər imzalamışıq, fikir ayrılıqlarını aradan qaldırmışıq və imzalanma mərasimləri təşkil etmişik. Nəticədə geniş mənada regional əməkdaşlığın çoxşaxəli və əhatəli formatı meydana gəlmişdir. Bu prosesdə aparıcı qüvvə yenə də Azərbaycan olmuşdur. Bu, bizim resurslarımız idi. Bu, bizim təşəbbüslərimiz idi. Əsas etibarilə, məhz bizim investisiyalarımız bu geniş əməkdaşlıq formatının yaranmasını təmin etmişdir.

Əminəm ki, ənənəvi olaraq "Bakı Enerji Həftəsi" bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq. Lakin əminəm ki, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planlar hamımız üçün faydalı olacaqdır. Bir daha bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

x x x

Sonra Amerika Birləşmiş Ştatlarının İqtisadiyyat, Enerji və Biznes məsələləri üzrə Büronun katibinin köməkçisi Kaleb Orr çıxış edərək ABŞ Prezidenti Donald Trampın məktubunu oxudu:

"Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

31-ci "Bakı Enerji Həftəsi"ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur.

Ölkələrimiz karbohidrogen sektorunda uzun tarixi olan əməkdaşlığa malikdir və əlçatan, zəngin enerjinin təmin edilməsinə sadiqdirlər. Birləşmiş Ştatlar Azərbaycanın neft-qaz sənayesinin çox böyük tərəfdarıdır və mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır.

Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq. Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir.

Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq. Uğurlu "Bakı Enerji Həftəsi" münasibətilə bir daha təbriklərimi çatdırıram.

Səmimiyyətlə,
Donald Tramp".

***

Daha sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar Prezident Rəcəb Tayyib Ərdoğanın "Bakı Enerji Həftəsi"nə məktubunu oxudu:

"Hörmətli iştirakçılar, hörmətli qonaqlar.

Sizi ən səmimi duyğu və sevgi ilə salamlayıram.

Otuz ildən artıq müddətdir qlobal enerji liderlərini, investorları və şirkətləri bir araya gətirən bu mötəbər foruma məktub göndərməklə də olsa, müraciət etməkdən böyük məmnunluq duyuram.

Regionumuzda yaşanan proseslər Azərbaycanla birlikdə enerji sahəsində atdığımız addımların nə qədər düzgün olduğunu göstərir. Bölgəmiz üçün xəyal kimi görünən bir çox meqalayihəni Azərbaycanla birlikdə uğurla həyata keçirməkdə davam edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP boru kəmərləri kimi layihələr Azərbaycanla birlikdə başlatdığımız və digər bir dost ölkə Gürcüstanın da töhfələri ilə başa çatdırdığımız layihələr arasındadır.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrində tərəfdaşlığımız sayəsində Azərbaycanla əməkdaşlığımızın daha da dərinləşdiyini görürük. "Şəfəq-Asiman" yatağı üzrə yeni tərəfdaşlığımız bu əməkdaşlığımızın fasiləsiz şəkildə davam etməsinin növbəti bariz sübutudur. Ötən il istifadəyə verilən İğdır-Naxçıvan qaz kəməri Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini dəstəkləyib və möhkəmləndirib.

Türkiyə ilə Azərbaycan arasındakı elektrik bağlantıları bizim üçün strateji əhəmiyyət daşımaqdadır. İnşallah, Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti layihəsinin həyata keçirilməsi ilə bütün regionumuzun enerji təhlükəsizliyinə töhfə verməyi düşünürük.

Eyni qaydada, ötən ilin avqust ayında Türkiyə və Azərbaycanın birgə təşəbbüsü nəticəsində Suriyaya qaz tədarükünün başlanmasının bu ölkənin inkişafına və regional təhlükəsizliyə töhfələri mübahisəsizdir. Türkmənistan qazının Azərbaycan və Türkiyə vasitəsilə ixracı istiqamətində əməkdaşlığımızı genişləndirmək üçün qarşımızda böyük imkanlar mövcuddur. Qazaxıstanın təbii ehtiyatlarının Qərb bazarlarına çatdırılmasında Bakı-Tbilisi-Ceyhan boru kəmərindən istifadənin daha da artmasının şahidi oluruq.

Hörmətli iştirakçılar, Türkiyə bərpaolunan və yaşıl enerji də daxil olmaqla enerji sektorunun bütün istiqamətlərində səmərəliliyi və ətraf mühitə qayğını əsas götürərək məhsuldarlığı təmin etməyə yönəlmiş baxışa sahibdir. Qlobal iqlim fəaliyyəti sahəsində öncül və nümunəvi ölkələrdən biri olmaq əzmimizi bu il noyabrın 9-20-də Antalyada ev sahibliyi edəcəyimiz COP31 Sammiti ilə daha da möhkəmləndirəcəyik.

Bu fikirlərlə "Bakı Enerji Həftəsi"nin ölkələrimiz və regionumuz üçün xeyirlərə vəsilə olmasını arzulayıram. Tədbirin təşkilində əməyi olanlara təşəkkür edir, Əziz Qardaşım Prezident cənab Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram.

Rəcəb Tayyib Ərdoğan
Türkiyə Prezidenti".

***

Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı Devid Rid çıxış edərək Baş nazir Kir Starmerin məktubunu oxudu:

"Hörmətli Prezident Əliyev.

2026-cı ilin "Bakı Enerji Həftəsi"ndə iştirak edən hər kəsə səmimi salamlarımı yetirməkdən məmnunam. Qlobal qeyri-müəyyənlik dövründə Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin və dayanıqlı mövqenin gücləndirilməsində çox mühüm tərəfdaş olaraq qalır.

On səkkiz ay əvvəl COP29-da iştirak üçün Bakıya səfər etdiyimiz zaman enerji keçidinə Azərbaycanın yetirdiyi ciddi diqqət mənə dərin təəssürat bağışladı. Həmin vaxtdan etibarən planlar fəaliyyətə çevrildi və bərpaolunan mənbələrdə enerji istehsalı sürətləndi, həm quruda, həm də dənizdə yaşıl enerjinin nəqli üçün geniş həll variantları təqdim olundu. Ölkəniz Ukraynanın enerji infrastrukturuna Rusiyanın davamlı və qanunsuz hücumları qarşısında həmin ölkənin enerji dayanıqlılığının möhkəmləndirilməsində mühüm rol oynadı. Ölkəniz təchizat zəncirlərinin şaxələndirilməsi yolu ilə öz enerji dayanıqlılığını formalaşdırmaq məqsədilə Avropa ölkələrinə imkanlar yaratdı. Həmçinin ötən il ölkəniz Sizin uzunmüddətli sülhə sadiqliyinizi gücləndirərək Ermənistana enerji ixracına başladı.

Ortaq iqlim məqsədlərinə doğru çalışdığımız bir vaxtda Birləşmiş Krallıq iqlimə müqavimətimizi gücləndirmək və 2050-ci ilə qədər xalis sıfra nail olmaq məqsədilə bu hökumətin planları üçün çox vacib olan qlobal enerji keçidini sürətləndirmək naminə Azərbaycanla çiyin-çiyinə işləməyə sadiq qalır. Britaniyanın sənayesi başda olmaqla, bizim uzunmüddətli enerji tərəfdaşlığımız ikitərəfli münasibətlərimizin təməl daşı rolunu oynayacaq, hər iki iqtisadiyyatda artımı sürətləndirən amil kimi davamlı xidmət edəcək. Bərpaolunan enerji və təmiz texnologiyalar sahəsində ekspert bacarıqlarımızı birləşdirərək, biz xalis sıfra nail olmaq və çiçəklənən, davamlı gələcəyi təmin etmək baxımından zəruri olan innovasiyanı inkişaf etdirə bilərik.

Bu təşəbbüs üçün göstərdiyiniz liderlik keyfiyyətlərini alqışlayır, Sizə və bütün iştirakçılara olduqca məhsuldar və uğurlu tədbir arzu edirəm.

Kir Starmer
Britaniyanın Baş naziri".

***

Tədbir digər çıxışlarla davam etdi.

Sonra "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirildi.

Daha sonra bir sıra sənədlər imzalandı.

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

Dövlətimizin başçısı sərgilərlə tanış oldu.

# Azərbaycan-ABŞ əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub

## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Kaleb Orra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak etdiyinə görə təşəkkürünü bildirdi.

ABŞ Prezidenti Donald Trampın bu tədbirə məktub ünvanlamasını məmnunluqla vurğulayan Prezident İlham Əliyev bu yanaşmanın və tərəfdaşlığın çox yüksək qiymətləndirildiyini bildirdi, buna görə ABŞ dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının, həmçinin bu Xartiya əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxundu, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğuladı. Bu xüsusda Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığı bildirildi.



Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu.

Kaleb Orr ABŞ Prezidenti Donald Trampın və Dövlət katibi Marko Rubionun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Donald Trampa və Marko Rubioya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Donald Trampın "Bakı Enerji Həftəsi"nə məktub ünvanlaması tədbirin Amerika Birləşmiş Ştatları üçün nə qədər önəmli olduğunu göstərir.

Kaleb Orr, eyni zamanda dedi ki, bu tədbir enerji bazarlarının vəziyyəti ilə bağlı müzakirələr aparmaq baxımından Prezident İlham Əliyevin liderlik rolunu nümayiş etdirir.

Söhbət zamanı "Bakı Enerji Həftəsi"nin qlobal enerji məsələləri barədə fikir mübadiləsi aparmaq, həmçinin dünyanın qabaqcıl enerji şirkətləri, dövlət qurumları, investorlar və sənaye mütəxəssisləri arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün uğurlu platforma olduğu vurğulandı.

Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğu qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Əsl müstəqillik o vaxt olur ki...

## İlham Əliyev: Öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq

Şanlı zəfərlərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatından sonra qalib Azərbaycanda bir sıra yeni ənənələr formalaşıb. Bunlardan biri də Prezident İlham Əliyevin ölkəmiz, xalqımız üçün əlamətdar günlər, milli bayramlar ərəfəsində işğaldan azad olunmuş ərazilərə səfər etməsidir. Bu səfərlər çərçivəsində dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə məskunlaşan sakinlərlə çoxsaylı görüşlərə qatılır, onlarla ən yaxın, ən doğma insanlar kimi bayramlaşır, sevinclərinə şərik çıxır, eyni zamanda, problemlərini öyrənir, həmçinin gələcək inkişafla bağlı hədəflərə diqqət çəkir, yeni-yeni açılış və təməlqoyma tədbirlərinə qatılır.

Bu il Azərbaycan xalqı Müstəqillik Gününü və müqəddəs Qurban bayramını artıq altıncı dəfə qalib xalq statusunda qeyd etdi. Həmçinin Prezident İlham Əliyev də öz ənənəsinə sadiq qalmaqla yenə də işğaldan azad edilmiş ərazilərimizdə səfərdə olub. Dövlətimizin başçısı Müstəqillik Günü münasibətilə mayın 28-də Xankəndi şəhərindəki Zəfər parkında ucaldılan Zəfər tağının önünə gül dəstələri düzüb. "Şanlı Zəfərimizdən sonra bu gözəl bayramı - 28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib. Hesab edirəm ki, ən düzgün seçimdir", - deyə dövlətimizin başçısı Şuşa rayonunun Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşdəki çıxışında bildirib.

**Müstəqillik böyük nailiyyətdir**

Prezident İlham Əliyevin azad ərazilərimizdə Azərbaycanın müstəqillik Günü ilə bağlı ifadə etdiyi fikirlər müstəsna önəm daşıyır. Dünyada xalqların sayı çoxdur. Ancaq müstəqillik heç də bütün xalqlara nəsib olmayıb. Yüzilliklər boyunca qəlbində azadlıq arzuları daşıyan, tarixin müxtəlif dönəmlərində bu ideya uğrunda mücadilələrə qatılan Azərbaycan xalqı isə hazırda müstəqil dövlətə sahibdir və inkişaf, tərəqqi yolundadır

Bu gün dünyanın siyasi xəritəsi fərqlidir. Biz görürük ki, bəzi dövlətlərin müstəqilliyi şərti səciyyə daşıyır. Belə dövlətlər de-yure müstəqilliklərini bəyan etsələr də, onlar müstəqil qərarlar qəbul etmək iqtidarında deyillər. Digər paytaxtlardan gələn diqtə ilə oturub dururlar. Azərbaycanın nümunəsi isə fərqlidir. Ölkəmizin tam müstəqil siyasət apardığına diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax, Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq. Baxmayaraq ki, torpaqlarımız uzun illər erməni işğalı altında idi, hətta o vaxt müstəqil siyasət apararaq böyük hörmət qazanmışıq dünyada. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi və ondan üç il sonra antiterror əməliyyatı, bizim Şanlı Zəfərimiz ölkəmizin, xalqımızın nüfuzunu dünyada daha da artırmışdır".

Azərbaycanın tam müstəqil siyasi kurs həyata keçirməsini şərtləndirən əsas amillərdən biri Lider amilidir. Ölkədə siyasi kursun varisliyini uğurla təmin edən Prezident İlham Əliyev milli səviyyədə əvəzolunmaz Lider kimi qəbul olunur. Məhz Onun qətiyyətli siyasi iradəsi əsasında daim qarşıya yeni-yeni hədəflər qoyulur və milli güc səfərbər edilməklə məqsədlərə çatılması təmin olunur.

**Heydər Əliyevin səyləri sayəsində müharibə dayandırıldı, inkişafa qədəm qoyuldu, güc toplanıldı**

Azərbaycan XX yüzillikdə ikinci dəfə müstəqilliyini 1991-ci ilin oktyabrında əldə edib. Prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində ölkəmizin bir sıra çətinliklərlə üzləşdiyinə diqqət çəkib. O dövrdə respublikamızda hakimiyyət uğrunda ciddi savaş gedirdi. İqtidarda olanlar yalnız öz kreslolarını qorumağa çalışırdılar. Müxalifət qüvvələri isə hansısa bir yolla hakimiyyətə gəlməyə can atırdılar. Hakimiyyətə can atanlar faktiki olaraq Şuşanı, Laçını və digər ərazilərimizi Ermənistana, demək olar ki, satmışdılar. Məhz satqınlıq nəticəsində Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılıb və bundan sonra, əfsuslar olsun ki, işğal 30 il davam edib.

Həmin təlatümlü dövrdə müstəqilliyimiz təhdid altında idi. 1992-ci ilin yazında qeyri-leqitim yolla hakimiyyətə gələn AXC - "Müsavat" iqtidarının səriştəsiz rəhbərliyi respublikamızı vətəndaş qarşıdurması, müstəqilliyin itirilməsi təhlükəsi ilə üzüzə qoymuşdu. Həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb etdi. Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və çətin vəziyyətə düşmüş ölkəyə rəhbərlik etməyə başladı. Onun müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr tezliklə müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. "Müstəqillik 1991-ci ildə bərpa edildi, amma yenə də təhlükə altında idi. Dediyim kimi, erməni işğalı, daxildəki hərcmərclik, qarşıdurma, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizə faktiki olaraq ölkəmizi məhvə aparırdı. Əgər o vaxt Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, indi xalqımızın, dövlətimizin taleyi necə olacaqdı, onu demək çətindir. Hər halda o vaxt Azərbaycan böyük fəlakətlə üz-üzə idi. O vaxt müharibə dayandırıldı, inkişafa qədəm qoyuldu, güc toplanıldı", -deyə Prezident İlham Əliyev vurğulayıb.

**Şanlı zəfərlərimiz dünyaya səs saldı**

Azərbaycan xalqı və dövləti İkinci Qarabağ müharibəsindən əvvəki mərhələdə heç vaxt ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması faktı ilə barışmayıb. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində işğal faktına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi daim ölkə gündəminin mərkəzində saxlanılıb. Bu strateji xəttə uyğun olaraq Azərbaycan danışıqlar prosesində fəallıq göstərməklə yanaşı, həm də iqtisadiyyatını gücləndirməklə milli














gücünü artırıb, müasir ordu quruculuğunu diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Dövlətimizin başçısı yüksək tribunalardan qətiyyətlə bildirirdi ki, Azərbaycan istənilən yolla ərazi bütövlüyünü təmin etməyə nail olacaq. Oldu da!

Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. 44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində reallaşdırmağa nail oldu. Şanlı zəfərlərimizdən böyük məmnunluğunu ifadə edən dövlətimizin başçısı bildirib: "Biz güc yığırdıq, güc toplayırdıq - həm iqtisadi, həm hərbi, həm beynəlxalq müstəvidə. Hazır olan zaman gəldik və elə gəldik ki, bütün dünyaya səs saldı bizim Şanlı Zəfərimiz".

**Xalq üçün görülən quruculuq-bərpa işləri**

Postmüharibə dövründə qalib Azərbaycanın həyatı böyük dərəcədə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq-bərpa işləri ilə səciyyələnir. Ötən beş ildə bu ərazilərdə çoxlu sayda infrastruktur layihələri reallaşdırılıb. Hazırda bərpa olunan yaşayış məntəqələrinin məskunlaşdırılması uğurla davam etdirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyev səfər çərçivəsində Şuşa rayonunun Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub.

Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Böyük Qaladərəsi işğaldan azad olunub.

Bildirildiyi kimi, kənddə yaşayış üçün lazımi şəraitin yaradılması və sosial məsələlərin həlli istiqamətində bir sıra layihələr icra olunub. Kənddə ümumilikdə 50 fərdi ev var. Onlardan 13-ü yararsızdır, 37-si isə qismən yararlıdır. Birinci mərhələdə artıq 17 ev bərpa olunub. Növbəti mərhələdə isə 20 evin bərpası planlaşdırılır. İlkin olaraq kəndə 64 nəfər (14 ailə) qayıdıb "Qısa müddət ərzində belə bərpa-quruculuq işləri aparmaq, bu da xalq üçündür. Yəni insanlar təz qayıtsınlar, rahat yaşasınlar və burada özlərini, necə deyərlər, çox rahat, təhlükəsiz hiss etsinlər, qurub-yaratsınlar, uşaqları böyütsünlər, ağbirçəklərə qulluq etsinlər və həyatdan zövq alsınlar", - deyə Prezident İlham Əliyev kənd sakinləri ilə görüşündə bildirib.

Budəfəki səfər çərçivəsində dövlətimizin başçısı həmçinin Xocalı rayonunda əsaslı təmir edilən və Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, burada ümumilikdə 191 fərdi ev var. Onlardan 1-i ikiotaqlı, 70-i üçotaqlı, 93-ü dördotaqlı, 8-i beşotaqlı, 1-i isə səkkizotaqlıdır. Bundan başqa, ərazidə ikimərtəbəli, yeddiotaqlı 18 ev də var. Evlərdə sakinlərin rahat yaşaması və istirahəti üçün zəruri şərait yaradılıb.

Prezident İlham Əliyev mayın 28-də Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışında da iştirak edib.

Qeyd edək ki, Xankəndi şəhərində yerləşən Mədəniyyət Mərkəzinin binası XX əsrin 60-70-ci illərində tikilib. Uzunmüddətli istismar nəticəsində binanın yükdaşıyan konstruksiyalarında aşınmalar, deformasiyalar və müxtəlif zədələnmələr yaranmışdı.

Aparılmış əsaslı yenidənqurma işləri nəticəsində Mədəniyyət Mərkəzində müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, kino və səhnə fəaliyyəti, yaradıcılıq, təlim, məşğələ, inzibati idarəetmə, turizmyönümlü xidmətlərin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb. Yenidənqurma işlərindən sonra bu mərkəz əhalisi artan, o cümlədən tələbələrlə dolu Xankəndinin mədəni mühitinin canlandırılmasında mühüm rol oynayacaq,

**Azad ərazilərin yeni sənaye xəritəsi formalaşır**

İşğaldan azad olunmuş ərazilərdə infrastruktur quruculuğu, yaşayış məntəqələrinin bərpası ilə paralel şəkildə, iş yerlərinin yaradılması da diqqət mərkəzində saxlanılır. Hazırda bu yerlərin yeni sənaye xəritəsi formalaşmaqdadır, Səfər çərçivəsində Prezident İlham Əliyev "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında iştirak edib.

Bildirilib ki, Türkiyə və Çin texnologiyalarının quraşdırıldığı müəssisədə il ərzində 1,4 milyon ədəd tekstil məhsulu istehsal olunacaq. İlkin mərhələdə müəssisədə müxtəlif çeşiddə və ölçülərdə ev tekstili məhsulları, o cümlədən yataq dəsti, çarpayı və divan örtüyü, dəsmal və digər məhsulların istehsalı nəzərdə tutulur. Xammal tədarükü əsasən daxili bazar hesabına təmin ediləcək müəssisəyə, eyni zamanda, Türkiyə, Özbəkistan və Çindən də xammal idxal olunacaq. Müəssisənin məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək.

Müəssisədə 85 nəfər daimi işlə təmin olunub ki, onlar da əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlardır.

İstehsal müəssisəsinin ilkin investisiya dəyəri 4,2 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3,2 milyon manat məbləğində güzəştli kredit ayrılıb, 1 milyon manat isə özəl investisiya yönləndirilib. Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentləri üçün nəzərdə tutulan bütün güzəşt və azadolmalardan yararlanacaq.

Prezident İlham Əliyev həmçinin Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışında iştirak edib. Burada müxtəlif təyinatlı 4 növdə iş əlcəkləri istehsal ediləcək. Müəssisənin illik istehsal gücü 25 milyon cüt əlcəkdir. Məhsullar daxili bazarın tələbatını ödəmək üçün nəzərdə tutulur. Gələcəkdə isə onların Avropa bazarına ixracı da planlaşdırılır. Burada 35 nəfər işlə təmin olunacaq. Müəssisənin investisiya həcmi 3,5 milyon manatdır.

*Mübariz ABDULLAYEV*

# Prezident Administrasiyasında görüş

## Böyük Azərbaycan Partiyasının sədri, Milli Məclisin deputatı Elşad Musayev Prezident Administrasiyasında qəbul edilmişdir

Görüş barədə məlumat redaksiyamıza Partiyanın Mətbuat xidməti tərəfindən verilmişdir.

Cari ilin 1 iyun tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə keçirilmiş görüş zamanı Partiyanın cari fəaliyyəti və perspektiv planları ilə yanaşı bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının mühüm nəticələri, “Böyük Qayıdış” Dövlət Proqramı çərçivəsində görülən işlər, habelə dövlət başçısının işğaldan azad olunmuş ərazilərə davamlı səfərlərinin əhəmiyyəti ətrafında söhbət aparılmışdır.

Xüsusi olaraq vurğulanmışdır ki, siyasi partiyaların geniş şəkildə Milli Məclisdə təmsil olunması ölkənin demokratik ənənələrinin inkişafına, həmçinin siyasi partiyaların ictimai nüfuzunun artmasına da müsbət təsir edir. Bildirilmişdir ki, 11 siyasi partiyanın Milli Məclisdə təmsil olunması faktı bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan iqtidar-müxalifət siyasi dialoqunun təzahürüdür.

Partiya sədri bildirmişdir ki, ölkədə milli həmrəylik mühitinin qorunması prosesində partiyalara xüsusi rol ayrılır. Bunun nəticəsidir ki, partiyalar fəal siyasi instituta çevrilib, onların ictimai imici əsaslı şəkildə yaxşılaşıb, həmçinin partiyaların nümayəndələri siyasi diskussiyalarda fəal iştirak edir.

Elşad Musayev rəhbərlik etdiyi Böyük Azərbaycan Partiyası tərəfindən həyata keçirilən cari layihələr, habelə özünün parlamentdəki fəaliyyəti, o cümlədən qanunvericilik işində iştirakı haqqında geniş məlumat vermişdir.

Bu cür görüşlərin mütəmadi şəkildə təşkil olunmasının və əlaqələndirmənin aparılmasının partiyaların gələcək fəaliyyəti üçün olduqca səmərəli təcrübə olduğunu qeyd edən E.Musayev dövlət və dövlətçilik naminə əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduğunu qeyd etmişdir.



Prezident Administrasiyasının rəsmisi Böyük Azərbaycan Partiyasının dövlətçilik mövqeyinin qorunmasında və siyasi dialoq prosesində fəal iştirakını yüksək qiymətləndirərək Partiyanın işinə uğurlar arzulamışdır.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub









Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti “Belaya Rus” Partiyasının dəvəti ilə “XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri” mövzusunda II Beynəlxalq Konfransda iştirak etmək məqsədilə Belarus Respublikasına səfər edib.

Mayın 28-də konfrans iştirakçıları “Brest - Qəhrəman Qala” Memorial Kompleksində Əbədi məşəlin önünə çələng və gül dəstələri qoyaraq İkinci Dünya müharibəsində həyatını itirmiş qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.

Açılış mərasimində Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun konfrans iştirakçılarına müraciəti səsləndirilib.

Sonra “Belaya Rus” Partiyasının Ali Siyasi Şurası Prezidiumunun üzvü Andrey Krivoşeyevin moderatorluğu ilə keçirilən plenar iclaslarda “Belaya Rus” Partiyasının sədri Olqa Çemodanova, Zimbabve Respublikası Milli Assambleyasının sədri, Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda, Moldova Respublikasının sabiq prezidenti, Sosialistlər Partiyasının sədri İqor Dodon, Sahibkarlar və İşadamları Hərəkatı - Özbəkistan Liberal - Demokratik Partiyası Siyasi Şurasının İcra Komitəsinin sədri Aktam Xaitov, “Yedinaya Rossiya” Partiyasının Ali Şurasının Beynəlxalq əməkdaşlıq komissiyasının üzvü, Rusiya Federasiyası Federal Şurası Dövlət Dumasının MDB məslələri üzrə Komitəsi sədrinin müavini Artyom Turov, Tacikistan Xalq Demokratik Partiyası sədrinin birinci müavini Malikşo Nematzoda, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Myanma İttifaqı Respublikasının Həmrəylik və İnkişaf Partiyası sədrinin müavini U Xla Xtun, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr komitəsinin sədri Bunlıa Pxandanuvonq, Koreya Xalq Demokratik Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Əmək Partiyasının üzvü Çi Kyon Su, Kuba Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Kuba Kommunist Partiyasının üzvü Santyaqo Peres Benites, Qazaxıstanın “AMANAT” partiyasının katibi Aleksandr Danilov, Almaniya üçün Alternativ partiyasından “Lauxhammer” parlament qrupunun rəhbəri Ştefan Korte, Serbiya Sosialistlər Hərəkatı Prezidiumunun üzvü, partiyanın Belqrad şəhər komitəsinin sədri Vladimir İliç, “Belaya Rus” partiyası Ali Siyasi Şurası Prezidiumunun üzvü, Belarus Respublikası Milli Assambleyasının Nümayəndələr Palatasının üzvü Aleksandr Şpakovskiy, Venesuela Vahid Sosialist Partiyası Siyasi Şurasının üzvü, Milli Assambleyanın üzvü Uilyam Farina və Brest Vilayəti İcra Komitəsinin sədri Pyotr Parxomçik çıxış ediblər.

Çıxışlarda dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda və çoxqütblü dünya nizamına transformasiya şəraitində dövlət suverenliyi-

davamı 5-ci səhifədə









# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub








əvvəli 4-cü səhifədə

nin qorunmasının, regional və qlobal təhlükəsizlik naminə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanaraq bu xüsusda partiya diplomatiyasının önəminə diqqət çəkilib.

Ayrı-ayrı regionlarda baş verən hərbi-siyasi münaqişələrin və humanitar böhranların qlobal təhlükəsizliyə ciddi təhdidlər yaratdığı vurğulanaraq bütün mübahisəli məsələlərin beynəlxalq hüquq normaları əsasında həllinin vacibliyi qeyd olunub. Bildirilib ki, ölkələrin daxili işlərinə müdaxilə yolverilməzdir və milli maraqlarına mütləq şəkildə hörmət edilməlidir.

Separatizmin və neolokolonializmin bütün forma və təzahürlərinə, müstəqil siyasət həyata keçirən ölkələrə qarşı ikili standartlara söykənən qərəzli münasibətə, çoxsaylı hibrid təhdidlərə, dezinformasiya, manipulyasiya və qara piar kampaniyalarına qarşı qətiyyətli mübarizənin önəmi nəzərə çatdırılıb. Bu kontekstdə dost və tərəfdaş ölkələrin həmrəylik nümayiş etdirməsinin, eləcə də aparıcı ictimai institut kimi siyasi partiyaların səylərinin birləşdirilməsinin və beynəlxalq platformalarda qarşılıqlı dəstəyin təmin olunmasının əhəmiyyəti vurğulanıb.

Partiya diplomatiyasının təkcə ikitərəfli əlaqələrin inkişafını əhatə etmədiyi və çoxşaxəli işbirliyinə hədəfləndiyi qeyd edilərək konfransın beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inam ifadə olunub.

Plenar iclasda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu mötəbər konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə ev sahibi "Belaya Rus" Partiyasına Yeni Azərbaycan Partiyası adından təşəkkürünü bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, XXI əsrdə müasir dünya nizamının çoxqütblü sistemə getdikcə daha çox transformasiyası ilə müşayiət olunan mürəkkəb geosiyasi proseslər şəraitində dövlətlər arasında qarşılıqlı hörmətə və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan əməkdaşlıq münasibətlərinin qurulması, eyni zamanda milli suverenliyin təmin edilməsi və maraqların qorunması xüsusi əhəmiyyət kəsb edir: "İnkişaf və tərəqqinin ən vacib şərti sülh və təhlükəsizlikdir. Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı yalnız hərbi münaqişələrlə məhdudlaşmır. Siyasi dialoq, qarşılıqlı etimad və inklüziv əməkdaşlıq mexanizmləri fikir ayrılıqlarının qarşısının alınmasında və dayanıqlı sülhün təmin edilməsində əsas rol oynayır".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın həyata keçirdiyi çoxşaxəli və məqsədyönlü siyasət bütövlükdə regionda davamlı sülhün, sabitliyin və rifahın təmin olunmasına xidmət edir: "Bu siyasətin ideoloji və hüquqi əsasını beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığın təşviqi təşkil edir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı tikinti-bərpa işləri çərçivəsində müasir nəqliyyat-kommunikasiya infrastrukturu yaradılır, yaşayış məntəqələri isə yeni "ağıllı" konsepsiyalar əsasında yenidən qurulur. Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regional əməkdaşlıq və inkişaf baxımından potensialından istifadəsi çərçivəsində Zəngəzur dəhlizinin reallaşdırılması yönündə işlər sürətlə aparılmaqdadır. Bütün bu tədbirlər ölkəmizin sülhə, təhlükəsizliyə və davamlı inkişafa verdiyi önəmin bariz göstəricisidir. Uzunmüddətli regional təhlükəsizlik və inkişafın təmin olunmasına mühüm zəmin yaradan bu yanaşma postmünaqişə dövründə sülhün möhkəmləndirilməsi və qarşılıqlı etimadın gücləndirilməsi baxımından praktik və nümunəvi model kimi çıxış edir".

YAP Sədrinin müavini bildirib ki, qloballaşma şəraitində, beynəlxalq münasibətlərin strukturunun dəyişməsi, qeyri-dövlət aktorlarının rolunun artması və çoxtərəfli əməkdaşlıq formatlarının genişlənməsi fonunda beynəlxalq sistemin fəal iştirakçıları kimi siyasi partiyaların rolu durmadan artır: "Bu kontekstdə partiyalararası dialoq ənənəvi diplomatik mexanizmləri tamamlayan, bəzən isə onları qabaqlayan mühüm vasitə kimi çıxış edir. Regionumuzda və ondan kənarda dayanıqlı sülhün təmin edilməsi üçün inklüziv əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsas götürülməlidir. Bu baxımdan, siyasi partiyalar, müxtəlif beyin mərkəzləri və beynəlxalq siyasi partiya təşkilatları arasında əməkdaşlığın daha da genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası beynəlxalq səviyyədə müxtəlif siyasi partiyalar arasında dialoqu təşviq edir. İkitərəfli formatda, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlər və müzakirələr qarşılıqlı anlaşmanın dərinləşməsinə və müasir qlobal çağırışlara cavab olaraq birgə yanaşmaların formalaşdırılmasına töhfə verir. İkitərəfli əlaqələr kontekstində partiyamızın əməkdaşlıq etdiyi Azərbaycana dost ölkələrin aparıcı siyasi partiyalarının sayı artmaqda, coğrafiyası daim genişlənməkdədir. Sevindirici haldır ki, dostluq, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Belarus münasibətlərinin dövlət başçılarımız cənab İlham Əliyev və cənab Aleksandr Lukaşenkonun müdrik və uzaqgörən siyasəti sayəsində hərtərəfli inkişafı fonunda YAP ilə "Belaya Rus" partiyası arasında əməkdaşlıq yeni yaranmasına baxmayaraq, sürətlə inkişaf edir. Bu isə ölkələrimiz və xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə kimi qiymətləndirilə bilər. Eyni zamanda, YAP dünyanın müxtəlif regionlarından yüzlərlə partiyanı əhatə edən Mərkəzçi Demokrat İnternasionalı və Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı kimi siyasi partiya təşkilatları ilə fəal əməkdaşlıq edir. Son illərdə YAP müxtəlif qitələrin aparıcı siyasi partiyalarının yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə regional və qlobal əhəmiyyət kəsb edən aktual məsələlərin müzakirəsi üçün beynəlxalq platforma formalaşdırmışdır. 2022-ci ildən etibarən iyunun 15-də Şuşa şəhərində keçirilən beynəlxalq konfransların mövzu və iştirak baxımından əhatə dairəsi sürətlə genişlənməkdədir. "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusuna həsr olunmuş qarşıdan gələn konfransda dövlət və hökumət strukturlarının nümayəndələri, müxtəlif ölkələrin aparıcı siyasi partiyaları, nüfuzlu analitik mərkəzlər və kütləvi informasiya vasitələrinin iştirakı ilə qlobal çağırışlar şəraitində sülh quruculuğu və partiyalararası diplomatiya mexanizmləri, regional əməkdaşlığın iqtisadi əsasları, eləcə də postmünaqişə dövründə ərazilərin bərpası və müasir şəhərsalma məsələləri ətraflı müzakirə olunacaqdır".








"Partiyalararası dialoq yalnız siyasi əməkdaşlığı deyil, eyni zamanda, humanitar və iqtisadi əlaqələrin genişlənməsini də stimullaşdırır. Bu baxımdan, tarixi Brest şəhərində keçirilən bu mötəbər tədbirin ölkələrimiz və xalqlarımızın mənafelərinə, eləcə də qlobal sülh və tərəqqiyə xidmət edən uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm. Konfransın işinə uğurlar arzulayıram" , - deyə T.Budaqov əlavə edib.

Tədbirin sonunda konfransda aparılmış müzakirələrin yekunlarını özündə əks etdirən qətnamə qəbul olunub.

YAP nümayəndə heyəti "Belaya Rus" Partiyası adından konfrans iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə də iştirak edib.

Nümayəndə heyətlərinin "Brest - Qəhrəman Qala" Memorial Kompleksinə, Respublika Gənclərin Vətənpərvərlik Tərbiyəsi Mərkəzinə və "Belovejskaya Puşça" Milli Parkına ziyarəti təşkil edilib. Həmçinin nümayəndə heyətləri Brest vilayətində bir sıra kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti ilə tanış olublar.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda arasında keçirilən görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər bir sıra beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyi vurğulanıb. İkitərəfli münasibətlərin inkişafı üçün mühüm potensialın mövcud olduğu qeyd edilib. Regional və beynəlxalq təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsinin aparıldığı görüş zamanı siyasi partiyalar və parlamentlər arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Belarus Milli Dövlət Teleradio Şirkətinin "Birinci informasiya" kanalına müsahibəsində beynəlxalq konfransın əhəmiyyətinə və səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

YAP nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

# Qeyri-neft sənayesinin inkişafına töhfə

## Sənaye zonalarında istehsalın həcmi 12,2 faiz artıb

2026-cı ilin birinci rübündə İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında istehsalın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz artaraq 883 milyon manata çatıb. Bu dövrdə istehsal olunan məhsulların 259 milyon manatlıq hissəsi ixrac edilib, sənaye zonalarına isə 158,7 milyon manat investisiya yatırılıb. Bu dövrdə Mingəçevir Sənaye Parkında istehsalda rekord artım qeydə alınıb, istehsal 77 faiz, ixrac isə 78 faizdən çox yüksəlib. Adıçəkilən Sənaye Parkında görülən işlərə ümumilikdə 159 milyon manat investisiya yatırılıb, 550 nəfər daimi işlə təmin edilib.

Cari ilin ötən dövründə Sumqayıt Sənaye Parkının istehsal potensialı böyüyüb, 100 milyon manatdan çox əlavə dəyər yaradılıb. Həmçinin, müəssisədə yeni rezidentlər fəaliyyətə başlayıb, "MET-AK" MMC-yə Agentliyin idarəçiliyində olan Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. Sumqayıt Sənaye Parkında bu günədək ümumi investisiya həcmi 6,7 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezident statusu verilib. Rezidentlər tərəfindən 5,6 milyard manatdan çox investisiya yatırılıb.

### Sənaye Parkları qeyri-neft sektorunun inkişafına töhfə verir

Sənaye Parkları ölkəmizin iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasında mühüm əhəmiyyət daşıyır. Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Ağdam, "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının imzaladığı müvafiq fərmanlara əsasən, hazırda Naxçıvan və Qərbi Sənaye Parkları yaradılmaqdadır. Həmin sənaye parkları ölkəmizin iqtisadi imkanlarının daha da artması, qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft resurslarının tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, bu hüquqi təşkildən sonra sənaye parklarının sayı 10-a çatmış olub və yeni parklar Azərbaycanın sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək. Eləcə də, Masallı, Neftçala, Sabirabad və Şərurda yerləşməklə 4 sənaye məhəlləsi fəaliyyət göstərir ki, bu da regionlarda sənaye potensiallarının səfərbər olunması, həmin bölgələrin inkişafında mühüm rol oynamaqdadır.



Sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına yeni imkanlar açır. Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafını daha da artırmaqdır. Bu məqsədlə sənaye zonalarında rezidentlər üçün əlverişli biznes və investisiya mühiti yaradılıb. İnvestorların fəaliyyətinin təşviqi məqsədilə sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə bir sıra mühüm vergi güzəştlərindən yararlanır. Belə ki, onlar əmlak, torpaq və mənfəət vergilərindən azad edilir, həmçinin istehsal məqsədi ilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular 10 il müddətinə ƏDV və gömrük rüsumları üzrə azadolmalar təbiq olunur.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda sənaye sahəsinin inkişafı prioritet olaraq müəyyənləşdirilib. Dövlət sənaye

### Sənaye sahəsinin inkişafı prioritetdir

sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Sənədə əsasən, qeyri-neft/qaz sənayesi hər il orta hesabla 8,4 faiz artacaq, sənaye zonalarının qeyri-neft/qaz sənaye istehsalında payı 15 faiz, qeyri-neft/qaz sənaye ixracında payı isə 25 faiz olacaq. Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahənin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Bu isə öz növbəsində qeyri-neft sektorunun iqtisadiyyatımızın aparıcı artım mənbəyi kimi mövqeyinin möhkəmlənməsinə təkan verəcək.

*E.CƏFƏRLİ*

### Qarabağ və Şərqi-Zəngəzurda sənayeləşmə dövrü başlayıb

Qarabağ və Şərqi-Zəngəzurda sayı daha da artan sənaye obyektləri, ələlxüsus da sənaye parklarında yeni rezidentlərin fəaliyyətə başlaması isə bu bölgənin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan yaratmaqdadır. Hazırda Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə investisiya kapitalı 350 milyon manatdan çox olan 40-dan çox rezident fəaliyyət göstərir. İndiyədək rezidentlər tərəfindən sənaye parklarına 90 milyon manatdan çox investisiya yatırılıb.

Bir müddət əvvəl "Baku International Tobacco" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusunun verilməsi parkın fəaliyyət sahəsini genişləndirib. Yeni rezident tərəfindən sənaye parkının ərazisində tütün məmulatlarının istehsalı layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri 47 milyon manat təşkil edən layihə çərçivəsində istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır. Təkcə bu sənaye parkında həyata keçirilən layihələr üzrə sahibkarlar tərəfindən indiyədək 48,3 milyon manatdan çox investisiya qoyulub, 130-dan artıq iş yeri yaradılıb.

Artıq bu sənaye obyektləri azad ərazilərin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirir.

Yeri gəlmişkən, mayın 28-də Prezident İlham Əliyevin iştirakı ilə Xocalı şəhərində "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) istifadəyə verilib. Türkiyə və Çin texnologiyalarının quraşdırıldığı müəssisədə il ərzində 1,4 milyon ədəd tekstil məhsulu istehsal olunacaq. İlkin mərhələdə müəssisədə müxtəlif çeşiddə və ölçülərdə ev tekstili məhsulları, o cümlədən yataq dəsti, çarpayı və divan örtüyü, dəsmal və digər məhsulların istehsalı nəzərdə tutulur. Xammal tədarükü əsasən daxili bazar hesabına təmin ediləcək müəssisəyə, eyni zamanda, Türkiyə, Özbəkistan və Çindən də xammal idxal olunacaq. Müəssisənin məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək.

Xankəndidə yeni fəaliyyətə başlayan "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin isə illik istehsal gücü 25 milyondur. Məhsullar daxili bazarın tələbatını ödəmək üçün nəzərdə tutulur. Gələcəkdə isə onların Avropa bazarına ixracı da planlaşdırılır. Burada 35 nəfər işlə təmin olunacaq. Müəssisənin investisiya həcmi 3,5 milyon manatdır.

# Qlobal neft ehtiyatları tükənməkdədir

## Azərbaycan ikinci neft bumuna keçid üçün xarici tərəfdaşlarla əməkdaşlığı artırıb

Beynəlxalq maliyyə qurumları qlobal neft bazarındakı vəziyyətlə bağlı birgə bəyanat yayıb. Beynəlxalq Enerji Agentliyi, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı Qrupu və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) rəhbərləri arasında mayın 28-də keçirilən görüşün yekunlarına dair açıqlanan bəyanatda vurğulanır ki, Hörmüz boğazı vasitəsilə tədarükün böyük ölçüdə itirilməsinə cavab olaraq qlobal neft ehtiyatları tükənməkdədir. Qlobal neft ehtiyatları tamamilə bitməsə də, Yaxın Şərqdəki münaqişələr, logistik problemlər və sərt tədarük məhdudiyyətləri səbəbindən rekord sürətlə azalır. Aparıcı maliyyə qurumlarının və Beynəlxalq Enerji Agentliyinin hesabatlarına görə, qlobal ehtiyatlar son illərin minimumuna düşüb. 2026-cı ilin ilk 4 ayında qlobal ehtiyatlar gündəlik milyonlarla barel azalıb. Analitiklərin qiymətləndirmələrinə görə, qalan kommersiya ehtiyatları yalnız bir neçə həftəlik və ya təxminən 3 aylıq qlobal istehlakı ödəyə biləcək səviyyədədir.

**100 günlük neft ehtiyatları qalıb**

Beynəlxalq Enerji Agentliyinin (IEA) rəhbəri Fatih Birol bildirib ki, neft bazarındakı gərginlik dayanıqlı təminat bloklarında problemlər yaradır. Bu amil eyni zamanda, müxtəlif ölkələr və regionlar üzrə enerji təchizatına, ərzaq təhlükəsizliyinə və iqtisadi fəallığa əhəmiyyətli və olduqca qeyri-mütənasib təsirlər göstərir. "Goldman Sachs" və "Morgan Stanley" kimi nəhəng investisiya şirkətlərinin dəyərləndirmələrinə görə, mart və aprel aylarında gündəlik 4,8 milyon barel azalıb ki, bu da əvvəlki bütün rekordlardan xeyli yüksəkdir. Nəticədə, qlobal ehtiyatlar səkkiz illik minimuma düşüb - təxminən 100 günlük qlobal istehlakı ödəmək üçün kifayətdir.

Hazırda dünya bazarının tələbatının 15 milyon tonu çatışmır ki, bu da Yaxın Şərq ölkələrindən ixrac olunan neftin həcmidir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) mayın 1-dən Neft İxrac Edən Ölkələr Təşkilatından (OPEC) və dünya neft bazarlarında qiymətlərin tənzimlənməsi üzrə "OPEC+" sazişindən çıxması təminat kvotalarına ciddi təsirlərini göstərib. BƏƏ gündəlik qlobal bazara təxminən 3-3,5 milyon barel neft tədarük edir və kvotanı tənzimləyən 8 ölkədən biridir, ölkənin resursları qlobal neft istehsalının təxminən 4 faizini təşkil edir, bu baxımdan ciddi pozuntuların olacağı güman edilə bilər. Eyni zamanda, "OPEC+"dakı yanacaq kvotasının ən azı 8-10 faizinə malik BƏƏ-nin hasilat və bazardakı gündəlik tənzimləmə siyasətinə qarışmaması vəziyyəti bir qədər də mürəkkəbləşdirir. BƏƏ bir aydır ki, müstəqil neft kvotasına uyğun bazara yanacaq çıxarır ki, nəticədə bartel ölkələrinin gündəlik bazar payı azalmaqdadır.

**Qiymətlər 200 dollar səviyyəsinə qədər yüksələ bilər**

ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın məlumatında deyilir ki, Yaxın Şərqdə neft təklifi ilə bağlı itkilərlə azalan tələbat arasında rəqabət neft qiymətləri üzərində iki istiqamətli risklər yaradır. Çin və Qərbi Avropada aprel ayına dair neft satışları bankın həmin ay üçün aşağı istiqamətli olan tələbat proqnozundan gündəlik təxminən 2 milyon barel aşağıdır. Bankın analitiklərinin fikrincə, bu vəziyyət cari ilin 4-cü rübündə bir bareli 90 dollar olacağı proqnozlaşdırılan "Brent" markalı xam neft qiymətinə təxminən 10 dollar aşağı istiqamətli risk yarada bilər. Həmçinin Yaxın Şərqdə potensial olaraq daha uzunmüddətli təklif itkiləri səbəbindən əhəmiyyətli qiymət artımları riski var. Eyni zamanda, tələbatın zəifləməsi səbəbindən qiymətlərin aşağı istiqamətli dəyişməsi riski də var.

"Goldman Sachs"a görə, yüksək qiymətlərə cavab olaraq neft tələbi gözləniləndən daha çox azala bilər. Əgər gəmiçilik axını normal vəziyyətə qayıtmasa, Şimal yarımkürəsində yayda neftə olan pik tələbat ərəfəsində qlobal neft ehtiyatlarının bu cür sürətlə azalmasının davam etməsi yanacaq təhlükəsizliyi, bazar şərtləri və daha geniş iqtisadi dözümlülük üçün artan risklər yaradacaq, qiymət sabitliyini pozacaq. Analitiklər hesab edir ki, münaqişənin uzanması halında neftin qiyməti 140 dollara qədər arta bilər, ən pessimist ssenarilərdə isə 200 dollar səviyyəsinə qədər yüksəlməsi istisna edilmir. Enerji qiymətlərinin uzun müddət yüksək qalması qlobal inflyasiya təzyiqlərini artırmaqla yanaşı, bəzi iqtisadiyyatlarda yüngül resessiya riskini də gücləndirə bilər. ABŞ-ın nüfuzlu "The Wall Street Journal" yazır ki, Hörmüz boğazı uzun müddət bağlı qalarsa neftin bir bareli 215 dollara kimi bahalaşa bilər və bu vəziyyət enerji şoku yaradar.

**Qlobal inflyasiya dərinləşir**

Dünyanın aparıcı maliyyə institutlarının bəyanatda xammal və logistika qırılmalarının da enerji təchizatı sistemini pozmasına diqqət çəkilir. Qeyd edilir ki, sənaye, ərzaq və xammal təchizatında logistika məhdudiyyətləri yaranır və dünyada bütün növ xammal və ehtiyatları bahalaşmış olur. Nəticədə qlobal iqtisadiyyatda kəskin inflyasiya yaranır. Mütəxəssislər bildirirlər ki, Hörmüz boğazının bağlanması qlobal neft qiymətlərində kəskin artıma, yanacaq və enerji tariflərinin bahalaşmasına, dünya bazarlarında təşviş səbəb ola bilər. Yeni gözləntilərə görə, qlobal ərzaq qiymətlərində təxminən 10 faiz artım baş verəcək ki, bu da əksər ölkələrdə qiymət indekslərini artıracaq.

Digər institutların ehtimallarına görə, qlobal iqtisadiyyatda ölkələr üzrə inflyasiya gözləntilərini də fərqli istiqamətə səmtləndirir. ABŞ-da təklif şoku kimi çıxış edən tariflərin tədricən istehlak qiymətlərinə ötürülməsi əlavə inflyasiya təzyiqləri yaradacaq. Avropa və digər region ölkələrində bahalı tarif çərçivəsi mənfi tələb şoku kimi çıxış edir. Ümumilikdə, 2026-cı ildə inkişaf etmiş ölkələrdə (İEÖ) inflyasiya proqnozu ən azı 2-4 faiz, inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) isə 2,5-5,4 faiz artımla fərz edilir.

"Standard & Poor's" beynəlxalq reytinq agentliyi açıqladığı yeni sənəddə dünya üzrə orta illik inflyasiyanın 3 fazi səviyyəsində artacağı proqnozlaşdırılır. Beynəlxalq Valyuta Fondunun proqnozlarında da inflyasiyanın yüksələcəyinə dair ehtimallar yer alır. BVF hesab edir ki, mövcud makroiqtisadi şərait və bazar təhlilləri inflyasiyanın artırıcı istiqamətdə dəyişdiyini göstərir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, martda ərzaq qiymətləri indeksi




ötən illə dövrü əsasda 1,7 faiz artıb, ancaq vəziyyət qiymət indeksinin ilin sonuna qədər daha da artacağına işarə edir.

**Azərbaycanın enerji bazarında rolu artır**

Mövcud fraqmentasiyalar və qlobal neft tədarükündəki məhdudiyyətlərin artması etibarlı və sadiq təchizatçı kimi Azərbaycanın da rolunu artırır. Hazırda ölkəmizdə ikinci neft bumuna keçid ölkəmizə olan diqqətin artmasına səbəb olur. SOCAR və bp şirkəti "Mərkəzi Azəri", "Şərqi Azəri", "Qərbi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq", "Çıraq", "Mərkəzi-Şərqi Azəri" (ACE) və "Şahdəniz Alfa" platformalarının istismar əməliyyatları və texniki xidmət işlərində hasilatın artırılması ilə bağlı yeni ssenari həyata keçirməkdədir. Bu hədəf planı Xəzərdəki ehtiyatların daha səmərəli və rəqabətədavamlı şəkildə işlənməsinə imkan verəcək.

Yeni neft bumuna keçid üçün SOCAR bp ilə yanaşı, dünyanın tanınmış enerji şirkətləri yeni texnologiyaların tətbiqi, innovasiya və səmərəlilik, idarəçilik və inkişaf kimi sahələrdə əməkdaşlıq imkanlarını da artırıb. SOCAR və ABŞ-ın "SLB" şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

Yeri gəlmişkən, Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandumun bir istiqaməti də enerji sahəsində əməkdaşlığı nəzərdə tutur. Eləcə də SOCAR və "Exxon-Mobil" korporasiyası arasında imzalanmış "Əməkdaşlıq haqqında Memorandum"ABŞ-ın məşhur enerji korporasiyasının Azərbaycanda yeni fəaliyyət planlarına dair yol xəritəsidir. "Exxon" şirkəti Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün "EXIM Bank"ı da prosesə qoşacaq ki, bu da nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.

Beləliklə, Azərbaycan bp və digər xarici tərəfdaş şirkətlərlə hasilat sənayesində yeni müqavilələr imzalaması neft sənayesində artımı optimallaşdırmaqla, ölkəmizin sadiq təchizatçı kimi uzun illər regional üstünlüyünü təmin edəcək.

*E.CƏFƏRLİ*

# Qərb mediası Okamponu ifşa edir

## Böyük Britaniyanın "Daily Express" nəşri keçmiş prokuror haqqında nələr yazıb?

Hazırda Cənubi Qafqazın dayanıqlı sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün praktiki addımlar atılır. Ermənistanın Azərbaycanın sülh şərtlərini qəbul etməsi, nəticə etibarilə ötən ilin avqustunda Vaşinqton razılaşmasının əldə olunması sülh naminə ümidləri gücləndirir. Bütün bunların fonunda xaricdəki bəzi anti-Azərbaycan qüvvələr regionumuzda gərginlik yaratmaq üçün hansısa "layihələr" reallaşdırmağa çalışırlar. Onlardan biri də Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampodur. Korrupsiyalaşmış keçmişi ilə tanınan Okampo indi də revanşist erməni qüvvələrinə müzdlu lobbiçilik edir. Maddi maraqlarının girovuna çevrilmiş bu şəxs özünün çirkin əməllərindən çəkinmək istəmir. Məlumdur ki, o, xaricdəki ermənipərəst dairələr üçün qanunsuz lobbiçilik edərək ölkəmizə qarşı qərəzli kampaniyalar aparıb. Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı çıxan Okampo erməniəsilli müharibə canilərinin də azadlığa buraxılması üçün Avropada "dəridən-qabıqdan" çıxıb.

### Okamponun timsalında bəzi qüvvələrin Cənubi Qafqaz "planları"...

Artıq Avropada da Okamponun gerçək siması ifşa olunur. Belə ki, Böyük Britaniyanın məşhur "Daily Express" nəşri Azərbaycan-Ermənistan sülh danışıqları, müəyyən qüvvələrin bu prosesə mane olmaq cəhdləri və Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun cinayətkar, korrupsioner fəaliyyətinə həsr olunmuş araşdırma dərc edib. Qeyd olunur ki, ABŞ Prezidenti Donald Tramp administrasiyasının Azərbaycan və Ermənistan arasında davam edən sülh prosesinə verdiyi dəstək son dövrlərdə Cənubi Qafqazda diqqət mərkəzində olan əsas geosiyasi məsələlərdən birinə çevrilib. Vaşinqtonun vasitəçilik təşəbbüsləri, regional kommunikasiyaların açılması istiqamətində irəli sürdüyü layihələr və tərəflər arasında etimadın gücləndirilməsinə yönəlmiş addımlar bölgədə uzunmüddətli sabitliyin formalaşmasına xidmət edir. Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması yalnız iki dövlət üçün deyil, bütövlükdə Cənubi Qafqazın gələcəyi üçün strateji əhəmiyyət daşıdığı xüsusi vurğulanır.

"Daily Express"in yazdığına görə, Okamponun timsalında bəzi qüvvələr Cənubi Qafqaz ətrafında dəfələrlə diskreditasiya olunmuş ritorikasını yenidən informasiya məkanına qaytarmağa çalışırlar. Maraqlıdır ki, Tramp administrasiyası Cənubi Qafqazı xarici siyasətin mühüm istiqamətlərindən biri kimi nəzərdən keçirir - xüsusilə Rusiyanın regionda mövqelərinin nəzərəçarpacaq dərəcədə zəifləməsi fonunda. Vaşinqton danışıqlarda əldə edilmiş tərəqqini möhkəmləndirməyə çalışır və uzunillik münaqişənin yekun həllini dəstəkləyir. Məqalədə xüsusi vurğulanır ki, Azərbaycanla Ermənistan arasında sülh prosesi son illərdə keyfiyyətcə yeni mərhələyə keçib. Söhbət artıq münaqişəni dondurma cəhdlərindən deyil, sərhədlərin delimitasiyasını, kommunikasiyaların bərpasını və regional əməkdaşlığın inkişafını əhatə edən tamhüquqlu sülh arxitekturasının formalaşdırılmasından gedir.



Yazıda, eyni zamanda britaniyalı parlamentarilərin azad olunmuş ərazilərdə "erməni mədəni irsinin məhv edilməsi"nə həsr olunmuş son "araşdırması" da tənqid edilib. Müəllif qeyd edir ki, dinləmələr birtərəfli xarakter daşıyıb, çünki dəvət edilmiş çıxışçılar arasında Azərbaycanın heç bir nümayəndəsi yox idi, bütün iştirakçılar isə ermənipərəst və rusiyayönümlü mövqeləri təmsil ediblər. Bu fonda Okamponun fəaliyyəti xüsusilə göstəricidir - o, 44 günlük müharibənin başa çatmasından sonra "soyqırım" və "etnik təmizləmə" haqqında siyasiləşdirilmiş və açıq-aşkar spekulyativ tezislərin ən fəal yayıcılarından birinə çevrilib. Onun bəyanatları dəfələrlə həm beynəlxalq ekspertlər, həm də hüquq ictimaiyyəti tərəfindən sübut bazasının olmamasına və beynəlxalq hüququ siyasi fəallıqla əvəzləmə cəhdlərinə görə tənqid edilib. Və məhz bu kontekstdə Okamponun ritorikası reallıqdan getdikcə daha çox uzaqlaşmış görünür. Keçmiş prokuror köhnə siyasi tezisləri yaymağa davam edərkən, beynəlxalq diplomatiya artıq gələcək sülh sazişinin parametrlərini və Cənubi Qafqazda uzunmüddətli sabitliyi müzakirə edir.

### Korrupsioner prokuror-muzdlu erməni lobbisinin təmsilçisi

Nəzərə alaq ki, Okamponun fəaliyyəti qalmaqallar və mübahisəli məqamlarla doludur və uzun illərdir beynəlxalq hüquq və siyasi dairələrdə müzakirə olunur. O, Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) ilk baş prokuroru kimi tanınsa da, fəaliyyəti dövründə və sonrakı illərdə müxtəlif ittihamlar, etik suallar və qərəzlilik iddiaları ilə gündəmə gəlib. Son illərdə isə Okampo Azərbaycan-Ermənistan münaqişəsi kontekstində hazırladığı hesabatlarla yenidən diqqət mərkəzinə düşüb. O, 2023-cü ildə Qarabağda ermənilərə qarşı qondarma "soyqırımı təhlükəsi" ilə bağlı hesabat hazırlamışdı. Azərbaycan tərəfi və bir sıra beynəlxalq hüquq ekspertləri həmin sənədi qərəzli, hüquqi əsaslardan məhrum və siyasi xarakterli hesab edərək sərt tənqid etmişdilər. Britaniyalı hüquqşünas Rodni Dikson və digər ekspertlər Okamponun nəticələrinin beynəlxalq hüququn tələblərinə uyğun olmadığını bildirmişdilər.

Aprel ayında isə Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru, Luis Moreno Okamponun qalmaqallı videosunun yayılması da onun "məqsədlərindən" xəbər verirdi. Okampo anlayır ki, artıq Azərbaycana qarşı təzyiqlər heç bir nəticə vermir. Çünki Azərbaycan torpaqlarını işğaldan azad edib, beynəlxalq ticarətin inkişafı üçün Orta Dəhliz kimi Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizi formalaşdırıb. Eləcə də, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu daha da artır. Ona görə də, Luis Moreno Okampo kimi ermənipərəst lobbiçilər artıq Azərbaycanı deyil, Ermənistan hakimiyyətini də hədəfə almağa başlayıblar. Korrupsioner Okampo sözügedən ictimailəşmiş videodakı çıxışında Avropa strukturlarındakı siyasi korrupsiyanı ifşa edir və özünün də qanunsuz lobbiçiliklə məşğul olduğunu etiraf edirdi. "Okamponun və onun oğlu Tomasın ifşa olunan video-kadrları Avropa qurumlarında kök atmış siyasi korrupsiyanın göstəricisidir. Keçmiş prokuror kadrlarda bildirirdi ki, erməni lobbisinin əsas məqsədi Ermənistanda baş nazir Paşinyanı devirməkdən ibarətdir. Korrupsioner prokuror Avropa strukturlarının Ermənistanda əhalini kütləvi etirazlara səsləməklə yanaşı, Avropa Parlamentindəki adamları vasitəsilə Ermənistana siyasi təzyiqlər etmək üçün işlərin aparıldığını bildirir. Onun Avropa Parlamentinin keçmiş prezidenti, Aİ-nin xarici siyasət üzrə keçmiş ali nümayəndəsi Jozep Borrelin adını çəkərək - "bizim Avropa strukturlarında J. Borrel kimi adamımız var", deməsi və bu kimi adamların köməkliyi ilə Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasının lazımlılığını vurğulaması təxribatçı planlardan xəbər verir.

Britaniya nəşrinin məqaləsinə gəlincə, Qərb KİV-ləri getdikcə daha çox tamamilə fərqli formada - diplomatiya, danışıqlar və Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülh perspektivləri haqqında materiallar dərc edir. "Daily Express" nəşrinin dərc etdiyi məqalə də Okamponun timsalında bəzi qüvvələrin hər vəchlə Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə mane olmaq cəhdlərini üzə çıxarır. Azərbaycan və Ermənistan arasında uzun illər davam edən qarşıdurmadan sonra regionda davamlı sülhün təmin olunması istiqamətində atılan addımlar Cənubi Qafqaz üçün yeni geosiyasi reallıq formalaşdırır. Tərəflər arasında sülh sazişinin imzalanması perspektivinin gücləndiyi bir dövrdə bəzi beynəlxalq dairələrin və ayrı-ayrı şəxslərin bu prosesi ləngitmək, yaxud tamamilə pozmaq cəhdləri daha aydın görünməyə başlayır. Məhz bu kontekstdə Böyük Britaniyanın nüfuzlu "Daily Express" nəşrində dərc olunan məqalə keçmiş Beynəlxalq Cinayət Məhkəməsi prokuroru Luis Moreno Okampo ətrafında yaranan qalmaqalları və onun regionla bağlı fəaliyyətini təhlil edərək, sülh prosesinə mane olmaq istəyən qüvvələrin fəaliyyətinə işıq salır.

### Sülh prosesini zəiflətmək cəhdləri

Nəşrdə dərc olunan məqalə göstərir ki, Okamponun timsalında ortaya çıxan qalmaqallar təkcə bir şəxsin fəaliyyəti ilə məhdudlaşmır. Bu hadisələr sülh prosesini zəiflətmək istəyən dairələrin fəaliyyət mexanizmlərini də üzə çıxarır. Məqalənin əsas mesajı ondan ibarətdir ki, Cənubi Qafqazda davamlı sülhün əldə olunması üçün regiondakı proseslərə kənardan müdaxilə cəhdləri və siyasi manipulyasiyalar obyektiv şəkildə qiymətləndirilməlidir.

Digər tərəfdən, beynəlxalq təşkilatların hesabatlarından da görünür ki, Avropa təşkilatlarında siyasi korrupsiya artmaqdadır və 2023-2025-ci illərdə ən yüksək səviyyəyə çatıb. Müxtəlif dövlətlərin Avropa qurumlarında mənafeyini müdafiə etmək çoxdandır ki, korrupsiya mənbəyinə çevrilib. Bununla əlaqədar həbslər və məhkəmə araşdırmaları da keçirilib. Bu mənada, Aİ-nin rəhbərliyində təmsil olunmuş, Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru olmuş şəxslər insan hüquqlarından, demokratiyadan, qanunlardan dəm vursalar da, əslində korrupsiya ilə məşğuldurlar. Onlar anlamalıdır ki, artıq Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb. Ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycan beynəlxalq müstəvidə söz sahibinə çevrilib. Ermənistan hakimiyyəti də reallığı qəbul etmək məcburiyyətindədir. Dünya ölkələri isə Azərbaycanın yaratdığı reallıqlarla hesablaşırlar.

***Nardar BAYRAMLI***

# Şərtlər sərtləşir

## ABŞ İrana yeni təkliflər təqdim edib?

ABŞ-la İran arasında atəşkəs əldə edildikdən sonra tərəflər yekun sülhlə bağlı hələ də razılığa gələ bilmir. Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib. İran, ABŞ və onların müttəfiqləri aprelin 8-ə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb. Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib. ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya alıb. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.

### Sülh üçün sazişin yeni detalları açıqlanmır

Xatırladaq ki, mayın 19-da İran müharibəyə son qoymaq üçün ABŞ-a təqdim etdiyi yeni sülh təklifinin təfərrüatlarını açıqlamışdı. Təklifin detalları İran xarici işlər nazirinin müavini Kazem Qəribabadi tərəfindən parlamentin milli təhlükəsizlik və xarici siyasət Komitəsinin üzvləri ilə görüşdə açıqlanıb. Orada İranla ABŞ arasında diplomatiyadakı son inkişaflar barədə ətraflı hesabat təqdim edilib. Qəribabadi bildirib ki, Tehranın təklifi "uranın zənginləşdirilməsi və dinc nüvə fəaliyyəti hüququnu" vurğulayır. Təklif, həmçinin Livan da daxil olmaqla bütün cəbhələrdə münaqişələrə son qoyulmasını, ABŞ-ın dəniz blokadasını qaldırmasını, İran aktivlərinin azad edilməsini, Vaşinqton tərəfindən son müharibə zamanı yenidənqurma səylərini dəstəkləmək üçün dəymiş ziyana görə kompensasiya ödənilməsini" əhatə edir. Onun sözlərinə görə, təklifdə bütün birtərəfli sanksiyaların və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin ləğvi və ABŞ qüvvələrinin İslam Respublikasını əhatə edən ərazilərdən çıxarılması tələb olunur.

İran ABŞ-ın müharibəyə son qoymaq təklifinə cavabını Pakistan vasitəsilə çatdırmışdı, lakin Prezident Donald Tramp İranın təklifini "tamamilə qəbuledilməz" adlandırmışdı. Ötən müddət ərzində isə ABŞ İran bazalarına lokal zərbələr endirdi.

Bu arada tərəflər arasında vasitəçilik edən Pakistan müharibənin yenidən alovlanmamasına çalışır. "Al Arabiya" telekanalının məlumatına görə, ABŞ və İran arasında münaqişənin həlli ilə bağlı danışıqların növbəti mərhələsi iyunun əvvəlində baş tuta bilər. Qeyd olunub ki, görüş Həcc ziyarəti başa çatdıqdan sonra İslamabadda keçirilə bilər. Mənbələr, həmçinin iddia ediblər ki, hazırda Vaşinqton və Tehran arasında razılaşmanın son versiyası üzərində iş gedir. Mayın 20-də Pakistanın daxili işlər naziri Möhsin Nəqvin, ondan bir gün sonra isə Pakistan ordusunun komandanı Asim Munir Tehrana səfər etmişdi. Bütün bunlar İslamabadın ABŞ-İran münaqişəsinin həlli üzrə səylərini gücləndirdiyini göstərir.



### Tramp: Saziş layihəsi əsasən nüvə proqramını əhatə edir

Bu səfərin nəticələri açıqlanmasa da, ABŞ Prezidenti Donald Tramp İranla münaqişənin həlli üçün saziş layihəsinin şərtlərini sərtləşdirib. Məlumatı "The New York Times" nəşri mənbələrə istinadən yayıb. Bildirilir ki, yenilənmiş saziş baxılması üçün Tehrana təqdim edilib. Potensial sazişin mətnində edilən dəqiq dəyişikliklər məlum deyil, lakin qəzetin mənbələri Trampın İran aktivlərinin dondurulmasının mümkün ləğvi ilə bağlı müddəalardan narahat olduğunu bildirib. Bundan əlavə, Amerika lideri hesab edir ki, İran ABŞ təkliflərinə kifayət qədər tez cavab vermir.

Adı çəkilməyən ABŞ rəsmisinin sözlərinə görə, Tramp danışıqlar prosesini sürətləndirmək və İrana təzyiq göstərməklə, onu əvvəllər təsdiq üçün İranın ali lideri Ayətullah Müctəba Xameneiyə göndərilmiş ilkin memorandum layihəsini qəbul etməyə inandırmaq üçün şərtləri sərtləşdirib. Qəzet xatırladır ki, Tramp 29 mayda Ağ Evin "Vəziyyət Otağı"nda İranla münaqişə ilə bağlı müşavirlərlə iki saatlıq görüş keçirib, lakin görüşdən sonra sazişlə bağlı heç bir qərar açıqlamayıb.

Bununla belə, Donald Tramp öz sosial şəbəkə platformasında İranla mümkün razılaşmanın, əsasən nüvə proqramı ilə bağlı məsələləri əhatə etdiyini bildirib və bu mövzunun sənəddə ətraflı şəkildə əks olunduğunu vurğulayıb. O, CNN-in İranla bağlı razılaşmanın mahiyyəti barədə məlumatlarını tənqid edərək qeyd edib ki, sənəddə İranın nüvə silahına malik olmayacağı açıq şəkildə göstərilir. Trampın sözlərinə görə, razılaşmanın böyük hissəsi məhz nüvə məsələlərinə həsr olunub.

ABŞ Prezidenti bazar günü "Fox News" telekanalına müsahibəsində də Vaşinqtonun irəli sürdüyü şərtlər əsasında İranla razılaşmaya yaxınlaşdıqlarını bildirib: "İnanıram ki, yavaş-yavaş, amma əmin addımlarla istədiyimiz nəticəni əldə edə biləcəyimiz bir mərhələyə yaxınlaşırıq". Tramp, eyni zamanda xəbərdarlıq edib ki, İran razılaşmanı qəbul etməsə, ABŞ hərbi variantı da nəzərdən keçirməyə hazırdır. "Axios" portalının məlumatına görə, Tramp ötən cümə günü Vaşinqtonda keçirilən görüşdə sazişlə bağlı yeni təkliflər irəli sürüb və xüsusilə İranın zənginləşdirilmiş uran ehtiyatlarının taleyi ilə bağlı daha sərt tələblər səsləndirib.

### CNN: İran 18 iri yeraltı raket bazasına çıxışı bərpa edib

İranın "Tasnim" xəbər agentliyi isə mənbələrinə istinadla məlumat verib ki, Prezident Donald Tramp razılaşmanın mətninə dəyişiklik etməyə çalışarsa, Tehran da ABŞ ilə bağlanacaq müqavilənin mətninə öz düzəlişlərini edəcək. Mənbənin sözlərinə görə, Trampın müqavilə mətninə etdiyi düzəlişlər Tehranın onları avtomatik qəbul edəcəyi anlamına gəlmir. İran tərəfi belə dəyişikliklərə mütləq reaksiya verəcək. Mənbə əlavə edib ki, İslam Respublikası müqavilənin imzalanmaması ehtimalına da tam hazırdır.

Bütün bunların fonunda CNN telekanalı peyk görüntülərinə istinadla İranın ABŞ zərbələri nəticəsində girişləri bağlanmış 18 iri yeraltı raket bazasına çıxışı bərpa etməsi barədə məlumat yayıb. Məlumata görə, İran bu obyektlərə aparan 69 tunel girişindən 50-ni yenidən istifadəyə yararlı vəziyyətə gətirib. Ekspertlər hesab edirlər ki, bu, Tehrana yeraltı anbarlarda saxlanılan raket və sursatları daha operativ şəkildə istifadə etmək imkanı yarada bilər. CNN-in qeyd etdiyinə görə, ekspertlər İranın yeraltı bazalarda təxminən 1000 raket saxladığını ehtimal edirlər. Peyk görüntüləri göstərir ki, girişlərin bərpası əsasən buldozerlər və özüboşaldan yük maşınları kimi sadə texnikanın köməyi ilə həyata keçirilib. Bazalara aparan yollar da təmir olunub. Ekspertlərin fikrincə, 20 ildən artıq müddətdə formalaşdırılan İranın yeraltı raket bazaları şəbəkəsi raketlər və buraxılış qurğuları üçün yüksək səviyyədə mühafizə təmin edir. Onların bir hissəsinin yüzlərlə metr dərinlikdə yerləşməsi ABŞ və İsrailin bu obyektlərə zərbə imkanlarını məhdudlaşdırır.

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Məsuliyyət, dəqiqlik və etibar...

## Aviasiya işçiləri mavi səmanın etibarlı keşikçiləridir

Səmanın sonsuz maviliyində hər gün minlərlə insan təhlükəsiz və rahat şəkildə mənzil başına çatır. Qitələri birləşdirən, xalqları yaxınlaşdıran, iqtisadiyyatları canlandıran bu gücün adı mülki aviasiyadır. Bir zamanlar yalnız xəyal edilən uçuşlar bu gün həyatımızın ayrılmaz parçasına çevrilib. Bu missiyanı yerinə yetirən mülki aviasiya işçiləri öz peşəkarlıqları, məsuliyyətləri və fədakar əməkləri ilə mühüm rol oynayırlar.

Məhz buna görə də Prezident İlham Əliyevin 18 may 2006-cı il tarixli Sərəncamına əsasən, 2 İyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı kimi qeyd olunur.

Mülki aviasiya sadəcə nəqliyyat sahəsi deyil, yüksək dəqiqlik, ciddi intizam, müasir texnologiyalar və insan amilinin vəhdəti üzərində qurulan mürəkkəb bir sistemdir. Bu sistemin dayanıqlı fəaliyyəti isə pilotlardan dispetçerlərə, mühəndislərdən texniki heyətə, hava limanı əməkdaşlarından uçuş təhlükəsizliyinə cavabdeh olan mütəxəssislərə qədər böyük bir komandanın gecə-gündüz davam edən əməyi sayəsində mümkün olur. Hər uğurlu uçuşun arxasında görünməyən, lakin son dərəcə vacib olan zəhmət dayanır.

Bu gün Azərbaycanın mülki aviasiyası regionun ən müasir və dinamik inkişaf edən sahələrindən biri kimi tanınır. Beynəlxalq standartlara uyğun qurulan infrastruktur, müasir hava limanları, yenilənən aviapark və peşəkar kadr potensialı ölkəmizin aviasiya sahəsində qazandığı uğurların əsas göstəricilərindən hesab olunur. Azərbaycanın hava qapıları təkcə sərnişinləri deyil, həm də ölkənin iqtisadi, turizm və beynəlxalq əlaqələr sahəsindəki nailiyyətlərini dünyaya daşıyan mühüm strateji mərkəzlərə çevrilib.

Bakıda yerləşən və öz memarlıq üslubu, texnoloji imkanları, yüksək xidmət keyfiyyəti ilə dünyanın müxtəlif nüfuzlu reytinqlərində ön sıralarda yer alan Heydər Əliyev Beynəlxalq Hava Limanı hər gün minlərlə sərnişini qəbul etməklə yanaşı, ölkənin beynəlxalq hava qovşağı kimi fəaliyyət göstərir. Azərbaycanın mülki aviasiyasının uğurlarından danışarkən AZAL-ın fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Şirkət müasir təyyarələrdən ibarət parkı, təhlükəsizlik standartlarına ciddi riayət etməsi, yeni istiqamətlərin açılması və xidmət keyfiyyətinin daim yüksəldilməsi sayəsində regionun aparıcı hava yollarından birinə çevrilib.

Son illərdə ölkənin müxtəlif bölgələrində yeni hava limanlarının tikilməsi və mövcud hava limanlarının yenidən qurulması nəticəsində Azərbaycanın nəqliyyat xəritəsi əhəmiyyətli dərəcədə dəyişib. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inşa edilən müasir hava limanları həmin ərazilərin sosial-iqtisadi inkişafına yeni nəfəs gətirməklə yanaşı, regionun beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını daha da sürətləndirib. Bu gün Azərbaycan səmasında təyyarələrin təhlükəsiz şəkildə hərəkət etməsi, ölkənin hava məkanının beynəlxalq tranzit marşrutları üçün cəlbedici istiqamətə çevrilməsinə şərait yaradır. Hava nəqliyyatının iqtisadiyyatın müxtəlif sahələrinə müsbət təsir göstərməsi onu deməyə əsas verir ki, Azərbaycan mülki aviasiyası gələcəkdə də inkişaf tempini qoruyaraq regionun ən güclü aviasiya mərkəzlərindən biri statusunu daha da möhkəmləndirəcək.

2 İyun münasibətilə bütün mülki aviasiya işçilərini təbrik edir, onlara məsuliyyətli fəaliyyətlərində yeni uğurlar, təhlükəsiz uçuşlar və daim açıq səma arzulayırıq. Səmanın etibarlı keşikçiləri olan bu insanların peşəkarlığı və zəhməti sayəsində üfüqlər daha yaxın, yollar isə daha təhlükəsizdir.

*Yeganə BAYRAMOVA*

**ABŞ Aya qayıdır**

# İnsanlıq yenidən Aya qayıdır - bu dəfə daimi qalmaq üçün

Yarım əsrdən çox əvvəl insan Aya ilk dəfə ayaq basanda bu, daha çox siyasi gücün və texnoloji yarışın simvolu idi. Bayraq sancıldı, tarix yazıldı və insanlar Yerə geri qayıtdılar.

Amma indi məqsəd tamamilə fərqlidir. İnsanlıq yenidən Aya qayıdır - bu dəfə sadəcə ora enmək üçün yox, orada qalmaq üçün.

Agentliyin Ay Bazası Proqramı Ay səthində uzunmüddətli insan mövcudluğunu təmin edəcək infrastrukturun yaradılmasını nəzərdə tutur.

Qurum 30 milyard dollarlıq bir arxitektura vasitəsilə Ayın cənub qütbü yaxınlığında daimi baza qurur. Plan robot və ekipajsız yük missiyaları tərəfindən roverlərin, elektrik şəbəkələrinin və dronların sınaqdan keçirilməsi ilə başlayır.




**Aya qayıdış mərhələləri**

Azərtacın xüsusi müxbiri xəbər verir ki, birinci mərhələ artıq 2026-cı ilin sonlarından başlayaraq 2028-ci ilə kimi davam edəcək. Bu mərhələdə NASA peykləri, kəşfiyyat dronlarını və roverləri daşımaq üçün çoxsaylı ekipajsız missiyalar həyata keçirəcək. 2029-2032-ci illəri əhatə edəcək ikinci mərhələdə infrastrukturun qurulması, fundament işlərinin görülməsi nəzərdə tutulub. Belə ki, NASA Ayda uzun müddət yaşamağa imkan verən günəş dirəkləri, nüvə parçalanma reaktorları və yerli rabitə şəbəkəsi yerləşdirməyi planlaşdırır. 2036-cı ilə qədər bitməsi planlaşdırılan 3-cü mərhələdə Ay daimi yaşayış məkanına çevriləcək. Əməliyyatlar daha dərin kosmik tədqiqatları və uzunmüddətli elmi missiyaları həyata keçirmək üçün Ayda suyun və oksigenin tapıntısına yönələcək.

NASA rəsmilərinin sözlərinə görə, bu məqsədlərə aparan yolun əsasını "Artemis" proqramı təşkil edir. Bildirilib ki, bu yaxınlarda "Artemis II" missiyası zamanı raket ekipajı orbitə uğurla çatdırıb, "Orion" kosmik gəmisinin həyat təminatı sistemləri, rabitə, naviqasiya və istilik qoruyucu qalxanı uğurla sınaqdan keçirilib.

Agentlik qeyd edir ki, həmin missiya insanların Yerə yaxın orbitdən kənarda necə yaşaması, işləməsi və yeni mühitə uyğunlaşması ilə bağlı mühüm məlumatlar əldə etməyə imkan verib.

**Əsas daşıyıcı "Blue Origin" şirkətinə məxsus olacaq**

NASA-nın ötən həftə keçirdiyi brifinq zamanı proqram çərçivəsində ilk iri müqavilələr də açıqlanıb. Ay nəqliyyat vasitələrinin səthə çatdırılması üzrə müqavilə Cef Bezosun sahibi olduğu "Blue Origin" şirkətinə verilib. Şirkətin hazırladığı sistemin 2027-ci ildə istifadəyə verilməsi planlaşdırılır.

Ay Bazası Proqramının Aya yükdaşıyan eniş aparatları üzrə direktoru Rayan Steffen bildirir ki, Aya eniş aparatları təkcə insanları daşımır, onlar gələcək insan missiyalarına hazırlıq görür. Radiasiya, temperatur şəraiti və Ay mühiti ilə bağlı elmi tədqiqatlar aparılır. Məqsəd Ayda insanların uzunmüddətli fəaliyyətini mümkün etmək üçün lazım olan bilikləri toplamaqdır.

NASA, həmçinin Ay səthində fəaliyyət göstərəcək iki yeni ay nəqliyyat vasitəsi layihəsinin qaliblərini elan edib. "Astrolab" və "Lunar Outpost" şirkətlərinin hazırladığı bu nəqliyyat vasitələri həm astronavtlar tərəfindən idarə olunacaq, həm də avtonom rejimdə işləyə biləcək.

Təxminən bir ton ağırlığında olacaq nəqliyyat vasitələrinin eniş nöqtəsindən 200 kilometrədək məsafədə hərəkət etməsi nəzərdə tutulur. Bu göstərici indiyədək Ay və Marsda istifadə olunmuş bir çox roverlərin imkanlarını üstələyir.

Birinci mərhələdə Ay səthinə təxminən 4 metrik ton yük çatdırılması nəzərdə tutulur. Sonrakı mərhələlərdə bu göstəricinin 60, daha sonra isə 150 metrik tona çatdırılması planlaşdırılır.

NASA bildirir ki, gələcək Ay Bazası bir nöqtədə yerləşən tək obyekt olmayacaq. Yaşayış modulları, enerji sistemləri, elmi stansiyalar, resursların çıxarıldığı sahələr və digər infrastruktur elementləri Ay səthinin müxtəlif bölgələrində yerləşəcək.

NASA, eyni zamanda "Moonfall" adlı yeni Ay dronları proqramını da təqdim edib. Bu pilotsuz sistemlər Ayın cənub qütbündə buz və su ehtiyatlarını araşdıracaq, radiasiya səviyyəsini ölçəcək və Ay səthinin santimetr dəqiqliyində xəritələrini hazırlayacaq.

**Aydan sonra Mars**

NASA-nın hədəfi isə prosesi tək Ayla yekunlaşdırmaq deyil.




Rayan Steffen deyir ki, Ay üçün hazırlanan bir çox texnologiyalar gələcək Mars missiyalarında da istifadə oluna bilər. Naviqasiya, idarəetmə sistemləri, avadanlıqlar və insanların kosmik mühitdə fəaliyyət təcrübəsi Marsa uçuşlar üçün vacib baza rolunu oynayır.

Ay artıq yalnız bir missiyanın hədəfi deyil. O, Marsa gedən yolun ilk dayanacağına çevrilir.

Ayın Cənub Qütbündə daimi kölgədə qalan kraterlərdən su buzunu çıxarmaqla astronavtlar içməli su, oksigen və maye hidrogen/oksigen raket yanacağı istehsal edə və Ayı davamlı dərin kosmos buraxılış meydançasına çevirə bilərlər. Bu isə Marsa gedən yolu asanlaşdıra bilər.

NASA insanları Ay səthinə qaytarmaq üçün Çinlə rəqabət aparır. Çin də 2030-cu ilə qədər insanları Aya göndərmək planlarını açıqlayıb.

Ekspertlər hesab edir ki, gələcəyin ən böyük rəqabəti artıq yalnız Yer üzündə deyil. Kosmos yeni iqtisadiyyatın, yeni texnologiyanın və yeni güc balansının mərkəzinə çevrilir.

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Sənədlərlə iş və statistika şöbəsinin aparıcı məsləhətçisi Ləman Bağırovaya atası

**ARZU ƏBİLHƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# "Nar" gənclərin təhsilinə dəstək olmağa davam edir

Sərfəli mobil operator "Nar" 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təhsilin inkişafına yönəlmiş təşəbbüslərini davam etdirir. Bu əlamətdar gün çərçivəsində şirkət Bakıda yerləşən Kimya-biologiya təmayüllü Respublika liseyinə 20 ədəd noutbuk təqdim edib.

Tədbirdə iştirak edən Kimya-biologiya təmayüllü Respublika liseyinin direktoru və "Nar"ın nümayəndəsi bildirib ki, gənclərin keyfiyyətli təhsil alması, müasir texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi ölkənin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd olunub ki, təqdim edilən noutbuklar şagirdlərin bilik və bacarıqlarının inkişafına töhfə verəcək, təhsilə yönəlmiş bu cür təşəbbüslər isə gələcəkdə ölkənin elm və iqtisadiyyatına dəyər qatacaq peşəkar kadrların yetişməsinə xidmət edir.




Qeyd edək ki, "Nar" təhsilə və gənclərin inkişafına dəstəyi korporativ sosial məsuliyyət fəaliyyətlərinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Şirkət qəbul imtahanlarında yüksək nəticə göstərən tələbələrin mükafatlandırılması, nitq və eşitmə məhdudiyyətli şəxslər üçün peşə təlimlərinin təşkili, eləcə də müxtəlif təhsil və inkişaf layihələrinin dəstəklənməsi vasitəsilə gənclərin bilik və bacarıqlarının artırılmasına töhfə verir.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 7 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir "eSim" texnologiyası təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5359
Sifariş: 700
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova